# Azərbaycan - Malayziya münasibətləri

## Qısa tarixi məlumat:

Malayziya Azərbaycanın müstəqilliyini 31 dekabr 1991-ci il tarixdə tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 05 aprel 1993-cü il tarixdə qurulmuşdur. 2013-cü ildə iki dövlət arasında diplomatik əlaqələrin qurulmasının 20 illik yubileyi qeyd olunmuşdur. Əlamətdar hadisə ilə bağlı Azərbaycan Respublikasının Prezidenti ilə Malayziyanın Baş naziri və xarici işlər nazirləri arasında təbrik məktublarının mübadiləsi həyata keçirilmişdir.
AR-in Malayziyada Səfirliyinin təsis edilməsi haqqında 20.09.2005-ci il tarixli, 998-IIQ saylı AR Qanunu və Səfirliyin fəaliyyətinin təmin edilməsi haqqında AR Prezidentinin 31.10.2005-ci il tarixli, 1071 saylı sərəncamı əsasında AR Prezidentinin 14.12.2006-cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Malayziyada ilk səfiri təyin edilmişdir.
Azərbaycan Respublikası Prezidentinin 28 mart 2013-cü il tarixli sərəncamına əsasən **Qaley Əliyeviç Allahverdiyev** Azərbaycan Respublikasının Malayziyadakı fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir. 27 may 2013-cü il tarixində səfir Q.Allahverdiyev etimadnaməsini Malayziyanın Ali Başçısı Kral Abdul Halimə təqdim etmişdir.
Malayziyanın Azərbaycan Respublikasındakı Səfirliyi 2014-cü ilin 31 mart tarixindən fəaliyyətə başlamışdır. Malayziyanın Azərbaycandakı səfirinin təyinatı ilə bağlı prosedurlar davam edir.

## Yüksək səviyyəli qarşılıqlı səfərlər:

- İslam Konfransı Təşkilatının (indiki İslam Əməkdaşlıq Təşkilatı) 13-14 dekabr 1994-cü il tarixdə Mərakeş Krallığının Kasablanka şəhərində keçirilmiş 7-ci Zirvə Toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Malayziyanın sabiq Baş naziri Mahatir Mohamad ilə görüşmüşdür. Görüş zamanı iki dövlət arasında ikitərəfli münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılmışdır. Görüşdə hər iki dövlətin BMT və İKT çərçivəsindəki əməkdaşlığından razılıq ifadə edilmiş və gələcəkdə müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilmişdir.

- 2000-ci ilin iyun ayında Azərbaycan Respublikası xarici işlər nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyəti İKT Xarici İşlər Nazirlərinin 27-ci Konfransında iştirak etmək məqsədilə Malayziyada səfərdə olmuşdur.

- 1-3 aprel 2002-ci il tarixlərdə Azərbaycan Respublikası xarici işlər naziri İKT-yə üzv dövlətlərin Xarici İşlər Nazirlərinin Kuala-Lumpurda keçirilmiş fövqəladə toplantısında iştirak etmişdir.

- 2003-cü ilin oktyabr ayında İKT Dövlət və Hökumət başçılarının Malayziyanın Putrajaya şəhərində keçirilmiş X Zirvə Konfransında Azərbaycan Respublikası xarici işlər naziri iştirak etmişdir.

- 2006-cı ilin fevral ayında Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov Qətərin paytaxtı Doha şəhərində Malayziyanın Xarici İşlər Naziri Syed Hamid Albar ilə görüşmüşdür.

- 16-18 mart 2006-cı il tarixlərdə Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov Malayziyada rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində, E.Məmmədyarov Malayziyanın xarici işlər naziri S.H.Albar ilə görüş keçirmiş, həmçinin Malayziya Baş Naziri Departamentinin İqtisadi Planlama Qurumunun Baş direktoru M.Z.M.Zaman tərəfindən təqdim edilən "Malayziyanın iqtisadi inkişafı" adlı brifinqdə iştirak etmişdir.

- 2006-cı ilin iyun ayında Malayziya xarici işlər naziri S.H.Albar İKT Xarici İşlər Nazirlərinin 33-cü iclasında iştirak etmək üçün Bakıda səfərdə olmuşdur. Səfər çərçivəsində o, Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov ilə görüş keçirmişdir.

- 2006-cı ilin avqust ayında Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə İslam Konfransı Təşkilatının Fövqəladə Zirvə toplantısında iştirak etmək məqsədilə Malayziyada səfərdə olmuşdur.

- 2006-cı ilin sentyabr ayında Malayziyanın turizm naziri Tenqku Adnan Tenqku Mansur İKT Turizm Nazirlərinin 5-ci Konfransında iştirak etmək məqsədilə Bakıda səfərdə olmuşdur.

- 14-17 fevral 2007-ci il tarixlərdə Malayziya Baş Nazirinin Ofisində Nazir Dato' Seri Mohamed Nazri Aziz Azərbaycanda səfərdə olmuşdur. Səfər çərçivəsində, Mohamed Nazri Aziz Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov və Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyev, həmçinin Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ilə görüşlər keçirmişdir.

- 17-19 may 2008-ci il tarixlərdə Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Malayziyaya səfər etmişdir. Səfərin məqsədi Kuala Lumpurda keçirilən BMT-nin İKT və İnkişaf üçün Qlobal İttifaqın (UN GAID) qlobal forumlarında, İnformasiya Texnologiyaları üzrə 16-cı Dünya Konqresində (WCIT2008) iştirak və BMT ilə Azərbaycan Respublikası Hökuməti arasında Məramnamənin imzalanması olmuşdur. Səfər çərçivəsində, nazir Ə.Abbasov Malayziyanın informasiya naziri Əhməd Şaberi Çik, elm və texnologiya naziri

Maksimus Ongkili və Ümumdünya Telekommunikasiya İttifaqının Baş Katibi Hamadoun Toure ilə ikitərəfli görüşlər keçirmişdir.

- 2008-ci ilin oktyabr ayında Malayziyanın ali təhsil naziri Datuk Seri Mohamed Nordin İKT ölkələri Ali Təhsil və Elmi Tədqiqat Nazirlərinin IV Konfransında iştirak etmək məqsədilə ölkəmizə səfər etmişdir.

- 2008-ci ilin dekabr və 2010-cu ilin mart aylarında Azərbaycan Respublikasının fövqəladə hallar naziri K.Heydərov Malayziyada səfərdə olmuşdur. 2-4 dekabr 2008-ci il tarixlərdə həyata keçirilmiş ilk səfər çərçivəsində nazir K.Heydərov "Fəlakət Riskinin Azaldılması" üzrə 3-cü Asiya Nazirlər Konfransında iştirak etmiş, həmçinin Malayziya Baş Nazirinin Ofisində Nazir Mohamed Nazri Aziz ilə görüş keçirmişdir. K.Heydərov 9-10 mart 2010-cu il tarixlərdə reallaşdırdığı ikinci səfəri çərçivəsində isə Malayziyanın kənd təsərrüfatı və aqrosənaye naziri, xarici işlər nazirinin müavini və "Petronas" neft və qaz şirkətinin vitse prezidenti ilə görüşlər keçirmişdir.

- 2009-cu ilin may ayında Azərbaycan Respublikasının təhsil naziri M.Mərdanov, 2010-cu ilin oktyabr ayında isə təhsil nazirinin müavini E.Qasımov Malayziyada səfərdə olmuşlar. E.Qasımov Malayziyanın ali təhsil naziri Məhəmməd Xalid Bin Nordinlə görüş keçirmişdir.

- 2008 və 2009-cu illərdə Bakıda keçirilmiş təhsil sərgilərində iştirak etmək məqsədilə Malayziya rəsmiləri Azərbaycana səfər etmişlər.

- 2010-cu ilin oktyabr ayında AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri H.Hüseynova "Bu gün uşaq, sabah lider" başlığı altında keçirilmiş Birinci Xanımların Sammitində iştirak etmək üçün Kuala Lumpurda səfərdə olmuşdur.

- 2011-ci ilin may ayında Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri A.Hacıyev Malayziyaya səfər etmişdir. Həmin ilin dekabr ayında isə millət vəkili M.İbrahimqızı Kuala Lumpurda səfərdə olmuşdur.

- 2011-ci ilin iyun ayında Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyəti başçılarının bir qrupu Kuala Lumpur şəhərində səfərdə olmuşdur.

- 2012-ci ilin mart ayında Malayziyanın sabiq Baş naziri Mahathir Mohamad Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olmuşdur. Səfər çərçivəsində, Mahathir Mohamad Azərbaycan Respublikasının

Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmiş, həmçinin bir sıra nazirlər və digər vəzifəli şəxslər ilə birgə görüş keçirmişdir.

- 22-23 iyun 2012-ci il tarixlərində Malayziyanın iqtidar partiyası UMNO-nun Ali Şurasının üzvü və eyni zamanda Baş nazirin müşaviri Datuk Seri Şahidan Bin Kassim Bakıda keçirilən Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransında iştirak etmək məqsədilə AR-də səfərdə olmuşlar.

- 27 iyun - 01 iyul 2012-ci il tarixlərdə Malayziya Baş Nazirinin Ofisində Nazir Dato' Seri Mohamed Nazri Azizin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Səfər çərçivəsində, malayziyalı nazir Azərbaycan Respublikası Milli Məclisinin Sədri, həmçinin Azərbaycan Respublikasının müdafiə və fövqəladə hallar nazirləri ilə görüşlər keçirmişdir.

- 3-8 oktyabr 2012-ci il tarixlərdə Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının 6-cı illik konfransı və ümumi yığıncağında iştirak etmək məqsədilə Malayziyada səfərdə olmuşdur.

- 2012-ci ilin 4-5 oktyabr tarixlərində keçirilmiş Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün Malayziya XİN Diplomatiya və Xarici Əlaqələr İnstitutunun Baş direktoru və Bernama Milli Xəbər Agentliyinin Baş redaktoru Azərbaycana səfər etmişlər.

- 2012-ci ilin 06-08 noyabr tarixlərində Azərbaycan Respublikası Milli Məclisinin Sədri cənab Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti Malayziya Parlamentinin Nümayəndələr Palatasının Sədri cənab Tan Sri Pandikar Amin Haji Mulianın dəvətilə Malayziyada rəsmi səfərdə olmuşdur. Səfər zamanı cənab O.Əsədov bu ölkənin Parlamentinin Nümayəndələr Palatasının Sədri cənab Tan Sri Pandikar Amin Haji Mulia, Parlamentin Senatının Prezidenti cənab Tan Sri Abu Zahar Bin Ujang, Malayziya Baş Nazirinin ofisində nazir cənab Dato' Seri Mohamed Nazri Bin Abdul Aziz, ölkənin Baş naziri cənab Dato' Sri Mohd Najib Tun Abdul Razak və sabiq Baş nazir Tun Dr. Mahathir bin Mohamad ilə görüşlər keçirmişdir.

- 21-24 noyabr tarixlərində Malayziyanın iqtidar partiyası UMNO-nun Ali Şurasının üzvü və eyni zamanda Baş nazirin müşaviri Datuk Seri Şahidan Bin Kassim, Malayziya Çin Assosasiyasının (MCA) Prezidenti Chua Soi Lek və Malayziya İslam Partiyasının Baş katibi, deputat Mustafa bin Alinin başçılıq etdiyi partiya nümayəndə heyətləri Bakıda keçirilən Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının 7-ci Assambleyasında iştirak etmək məqsədilə AR-də səfərdə olmuşlar.

- 23-26 noyabr 2012-ci il tarixində Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru cənab Şahmar Mövsümovun başçılıq etdiyi nümayəndə heyəti Fondun daşınmaz əmlaka potensial investisiyalar layihəsi çərçivəsində Malayziyada işgüzar səfərdə olmuşdur. Səfər zamanı Malayziyanın bir sıra şirkət rəhbərləri ilə görüşlərdə bölgəyə sərmayə yatırımları ilə bağlı danışıqlar aparılmışdır.

- 26-27 noyabr 2012-ci il tarixlərində Malayziyanın iqtidar partiyası Birləşmiş Malay Milli Təşkilatının (UMNO) təşkilatçılığı ilə Kuala Lumpur şəhərində Beynəlxalq Forum təşkil edilmişdir. Həmçinin, 29 noyabr 2012-ci ildə UMNO-nun 2012-ci il üzrə illik Ali yığıncağı keçirilmişdir. Dəvətə əsasən qeyd olunan tədbirlərdə AR Milli Məclisinin Yeni Azərbaycan Partiyasından olan deputatları Məlahət İbrahimqızı və Sevinc Hüseynova iştirak etmişlər.

- 2012-ci ilin 02 dekabrında "MASKarqo" aviaşirkətinin baş direktoru Mohd Yunus bin İdris AR-ə işgüzar səfər etmişdir. Səfər çərçivəsində "Azərbaycan Hava Yolları" QSC-nin səlahiyyətli nümayəndələri ilə birbaşa hava nəqliyyatı işi ilə bağlı fəaliyyətin genişləndirilməsi və Malayziya Hökuməti ilə AR Hökuməti arasında "Hava Xidmətləri haqqında Saziş" Layihəsinin imzalanması ilə bağlı müzakirələr aparılmışdır.

- 23-26 aprel 2013-cü il tarixlərində Bakı şəhərində İslam Əməkdaşlığı Təşkilatına (İƏT) üzv dövlətlərin əmək nazirlərinin konfransında iştirak etmək məqsədilə Malayziya İnsan Resursları Nazirliyin Əmək Departamentinin Baş direktoru Aminuddin Bin Ab Rahaman və Peşə Təhlükəsizliyi və Sağlamlıq Departamentinin Baş direktoru Johari Basri Azərbaycana səfər etmişlər.

- 29 may – 1 iyun 2013-cü il tarixlərdə Bakıda keçirilən II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün Malayziya Xarici İşlər Nazirliyinin Diplomatiya və Beynəlxalq Münasibətlər İnstitutunun (IDFR) direktoru Dato' Ku Jafaar bin Ku Shaari və Malayziya Beynəlxalq İslam Universitetinin prorektoru Kamar Oniah Binti Kamaruzaman Azərbaycana səfər etmişlər.

- 10-11 iyun 2013-cü il tarixdə Malayziyanın xarici işlər naziri Dato Sri Anifah bin Haji Amanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına işgüzar səfər etmişdir. Səfər çərçivəsində, nazir Azərbaycanın Prezidenti cənab İlham Əliyevin qəbulunda olmuş və xarici işlər naziri cənab Elmar Məmmədyarovla görüşmüşdür.

- 12-15 avqust 2013-cü il tarixlərində Malayziya Baş Nazirinin Ofisində nazir Şahidan Bin Kassim Bakı şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Gənclər Qolunun 2-ci Toplantısında iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olmuşdur.

- 25-27 noyabr tarixlərində AR təhsil nazirinin müşaviri, AR-də təhsil reformasiyasına dəstək proqramı layihəsinin rəhbəri Malayziyada işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində E.Məcidov Malayziyanın orta təhsil sisteminin vəziyyəti və informasiya texnologiyalarının ali məktəblərdə tədrisinin səviyyəsi ilə tanış olmaq, habelə ikitərəfli əməkdaşlıq imkanlarını müzakirə etmək məqsədilə Malayziya Təhsil Nazirliyinin Baş katibi, beynəlxalq əlaqələr idarəsinin rəisi, Malaya Universitetinin prorektoru ilə görüşlər keçirmişdir.

- 01-05 dekabr 2013-cü il tarixlərdə AR MSK-nın sədri Məzahir Pənahov Malayziyaya işgüzar səfər etmişdir. Səfər çərçivəsində sədr Malayziya Seçki Komissiyasının təşkil etdiyi Seçki məsələlərinə dair beynəlxalq simpoziumda iştirak etmişdir.

- 1-8 dekabr tarixlərində Bakıda keçirilmiş YUNESKO-nun Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasında iştirak etmək məqsədilə Malayziya Milli İrs Departamentinin rəhbəri xanım Siti Zuraina Binti Abdul Majeed Azərbaycanda səfərdə olmuşdur.

- 2-5 dekabr tarixlərində keçirilmiş Malayziyanın iqtidar partiyası UMNO-nun Ali yığıncağında iştirak etmək məqsədilə AR MM-in YAP-dan olan 1 nəfər deputatı – Məlahət İbrahimqızı və YAP-ın Qadınlar Şurasının Sədri Nurlana Əliyeva Malayziyaya səfər etmişlər. Səfər çərçivəsində nümayəndələr Malayziya Beynəlxalq İslam Universitetinin prorektoru Abdelaziz Berghout və Malayziyada ali təhsil alan azərbaycanlı tələbələrlə də görüşlər keçirmişlər.

- 31 mart 2013-cü il tarixdən etibarən Malayziyanın Azərbaycan Respublikasındakı Səfirliyi fəaliyyətə başlamışdır. Diplomat Harris Bin Alwi Səfirliyin müvəqqəti işlər vəkili təyin olunmuşdur.

- 14-17 aprel 2014-cü il tarixlərində, Kuala Lumpur şəhərində Malayziya Müdafiə Nazirliyinin təşkilatçılığı ilə 14-cü "Defence Services Asia" – DSA 2014 adlı 4 günlük beynəlxalq sərgi və konfransı keçirilmişdir. Beynəlxalq sərgidə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi ilk dəfə iştirak edərək 132 növdə müxtəlif təyinatlı müdafiə məhsullarını nümayiş etdirmişdir.

- Müdafiə sənayesi naziri Yavər Camalovun başçılığı ilə Malayziyada səfərdə olan Azərbaycanın nümayəndə heyəti 14-cü "Defence Services Asia" – DSA 2014 sərgisində məhsulların nümayişi ilə yanaşı, cari ilin sentyabr ayında Bakıda keçiriləcək ADEX 2014 beynəlxalq müdafiə sərgisinin də tanıtma işini həyata keçirmişdir. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin başçısı müdafiə sənayesi naziri Y. Camalov bir sıra işgüzar görüşlər keçirmiş, ilk növbədə Malayziyanın müdafiə naziri Dato' Seri Hishammuddin bin Tun Husseinlə görüşmüşdür.

- 27-29 may 2014-cü il tarixlərdə Malayziya Dövlət Neft Şirkəti PETRONAS-ın prezidenti Tan Sri Dato' Shamsul Azhar Abbasın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmişdir. Səfər çərçivəsində nümayəndə heyətinin başçısı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti ilə görüş keçirmişdir.

- 05-08 iyun 2014-cü il tarixlərdə Malayziyanın xarici işlər naziri Dato Sri Anifah bin Haji Amanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Səfər çərçivəsində, nazir Azərbaycan Respublikası Milli Məclisinin Sədri, Xarici işlər naziri və Fövqəladə hallar naziri ilə görüşlər keçirmişdir.

- 17-18 iyun 2014-cü il tarixlərdə Bakı şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Əmək, məşğulluq və sosial müdafiə ilə bağlı Çərçivə sənədinin icrası üzrə Rəhbər Komitəsinin iclasında iştirak etmək məqsədilə Malayziyanın İnsan Qaynaqları Nazirliyinin baş katibinin müavini Mohd Sahar bin Darusmanın başçılığı ilə nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

- 30 iyun – 01 iyul 2014-cü il tarixlərdə Azərbaycan Hökumətinin təşkilatçılığı ilə Bakıda keçirilən Korrupsiyaya qarşı mübarizəyə dair beynəlxalq konfransda iştirak məqsədilə Malayziyanın Antikorrupsiya Komissiyasının 2 nəfər İdarə rəisi Azərbaycanda səfərdə olmuşlar.

**Parlamentlərarası əlaqələr:**

Azərbaycan və Malayziya arasında parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. İşçi qrupunun Azərbaycan tərəfdən rəhbəri Hacıyev Asəf Hacı oğlu təyin edilmişdir. Növbəti seçkilərdən sonra 2013-cü ilin iyun ayında yenidən formalaşmış Malayziya Parlamentində müvafiq işçi qrupunun tərkibi hələlik təyin olunmamışdır.

**Sahələr üzrə əməkdaşlıq:**

**Siyasi sahədə:**

Azərbaycan və Malayziya arasında XİN-lərarası məsləhətləşmələr aparılmayıb, hər hansı saziş imzalanmamışdır.

**İqtisadi sahədə:**

Azərbaycan-Malayziya birgə iqtisadi komissiyası fəaliyyət göstərmir. İki ölkə arasında iqtisadi sahədə sazişlər mövcud deyildir.

<table>
<tr><td rowspan="5">Ticarət dövriyyəsi (milyon ABŞ dolları ilə)</td><td>İl</td><td>İxrac</td><td>İdxal</td><td>Cəmi</td></tr>
<tr><td>2012</td><td>371,0</td><td>19,0</td><td>390,0</td></tr>
<tr><td>2013</td><td>0,08</td><td>30,26</td><td>30,34</td></tr>
<tr><td colspan="4">Əsas ixrac məhsulları (2011-2012):<br>xam neft, neft məhsulları, yer və tunel qazan maşınların hissələri, analoji ölçü cihazları, statik dəyişdiricilər, meyvə şirələri</td></tr>
<tr><td colspan="4">Əsas idxal məhsulları:<br>Elektronik və elektrik aparatlar, xam palma yağı, bitki və heyvan mənşəli piylər və yağlar, vulkanlaşdırılmış rezindən əlcəklər</td></tr>
<tr><td>Şirkətlərin fəaliyyəti</td><td colspan="4">Fəaliyyət göstərmir</td></tr>
<tr><td>İnvestisiyalar</td><td colspan="4">Mövcud deyildir</td></tr>
<tr><td>Malayziya şirkətlərinin Azərbaycanda fəaliyyəti</td><td colspan="4">1. 2008-ci ildən Malayziyanın “Marrybrown Fried Chicken” qəlyanaltı şirkətinin filialı “ANS Şirkətlər Qrupu” MMC ilə əməkdaşlıq çərçivəsində Bakı şəhərində fəaliyyət göstərir.<br>2. Malayziyanın “Eversendai” şirkətlər ittifaqı “Gilan Holdinq” MMC-nin sifarişçisi olduğu “Crescent City Baku” ofis binasının layihə dəyəri 28,5 milyon ABŞ dollarlıq metal konstruksiya işi üzrə tenderin qalibi olmuşdur.</td></tr>
</table>

**Humanitar sahədə:**

Tərəflər arasında humanitar sahədə saziş imzalanmamışdır. Malayziyada müxtəlif ali təhsil pillələri üzrə azərbaycanlı tələbələr təhsil almaqdadırlar.

**Müqavilə-hüquq bazası:**

2012-ci ilin dekabr ayında Azərbaycan Respublikası və Malayziyanın hava nəqliyyatı qurumları arasında Anlaşma Memorandumu imzalanmışdır.

2013-cü ilin fevral ayında Azərbaycanın “Silk Way Airlines” və Malayziyanın “MASkargo” aviaşirkətləri arasında əməkdaşlığa dair Memorandum imzalanmışdır.

Bundan başqa, tərəflər arasında imzalanması nəzərdə tutulan 17 saziş layihəsinə (XİN-lər arası əməkdaşlıq, təhsil, mədəniyyət, turizm, informasiya texnologiyaları, gömrük, vergi, ədliyyə, investisiyaların təşviqi, viza və s.) baxılmaqdadır.

***Son yenilənmə tarixi: 25.07.2014***